| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 08.02.2000 |
| QEYDİYYAT NÖMRƏSİ | 278 |
| ADI | “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-04-2000, Nəşr nömrəsi: 04, Maddə nömrəsi: 257) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 390.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**“Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, 2000-ci il iyunun 1-dək:

qüvvədə olan qanunvericilik aktlarının “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyəti hüdudlarında “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

*2. Müəyyən edilsin ki:* [1]

*2.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 48.0.1-ci, 93.4-cü və 98.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;* [2]

*2.2. həmin Məcəllənin 93-1.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;*

*2.3. həmin Məcəllənin 168-1.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirir;*

*2.4. həmin Məcəllənin 195-2.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;*

~~*2.5. həmin Məcəllənin 318-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirirlər;*~~ [3]

*2.6. həmin Məcəllənin 87.2-ci və 87.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*

*2.7. həmin Məcəllənin 93.4-cü və 98.4-cü maddələrində ‘orqan (qurum)’ dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur.* [4]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 8 fevral 2000-ci il
278

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 22 may 2015-ci il tarixli **536** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 04 may 2015-ci il, 118 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 542**)
2. 29 mart 2018-ci il **1897** nömrəli tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 30 mart 2018-ci il, 70 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 447**)
3. 19 aprel 2018-ci il tarixli **2** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 20 aprel 2018-ci il, 88, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 679**)
4. 22 may 2020-ci il tarixli **1038** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 2 iyun 2020-ci il, 103, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 563** )
5. 12 iyun 2021-ci il tarixli **1350** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 13 iyun 2021-ci il, 122 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 565**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 22 may 2015-ci il tarixli **536** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 04 may 2015-ci il, 118 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 542**) ilə 2-ci hissəsinə “**orqanları**” sözündən sonra “, **318-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini isə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti**” sözləri əlavə edil

29 mart 2018-ci il **1897** nömrəli tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 30 mart 2018-ci il, 70 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 447**) ilə 2-ci hissəyə “**yerli icra hakimiyyəti orqanları**” sözlərindən sonra “**, 195-2.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**” sözləri əlavə edilmişdir.

19 aprel 2018-ci il tarixli **2** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 20 aprel 2018-ci il, 88, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 679**) ilə 2-ci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 47.1., 87.2. və 87.4. cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları, *195-2.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, 318-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini isə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti* həyata keçirirlər.~~

[2] 12 iyun 2021-ci il tarixli **1350** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 13 iyun 2021-ci il, 122 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 565)** ilə 2.1-ci bənddə “**maddəsində**” sözü “, **93.4-cü və 98.4-cü maddələrində**” sözləri ilə əvəz edilmişdir.

[3] 22 may 2020-ci il tarixli **1038** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 2 iyun 2020-ci il, 103, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 563 )** ilə 2.5-ci bənd ləğv edilmişdir.

[4] 12 iyun 2021-ci il tarixli **1350** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 13 iyun 2021-ci il, 122 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 565)** ilə 2.6-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.7-ci bənd əlavə edilmişdir.